**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Çex Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumunun təsdiq edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Çex Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında 2015-ci il sentyabrın 15-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Çex Respublikası Hökumətinə bildiriş göndərsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 20 noyabr 2015-ci il
№ 1551

**Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Çex Respublikasının Kənd Təsərrüfatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında**

**ANLAŞMA MEMORANDUMU**

Bundan sonra "Tərəflər" adlandırılacaq Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Çex Respublikasının Kənd Təsərrüfatı Nazirliyi, Azərbaycan Respublikası Hökuməti ilə Çex Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında Sazişə müvafiq olaraq, iki ölkə arasında dostluq münasibətlərini və kənd təsərrüfatı sahəsində əməkdaşlığı inkişaf etdirməyi arzulayaraq,

hər iki ölkədə elmi tədqiqat, təlim və kənd təsərrüfatının inkişafı üzrə məsul qurumlar arasında əməkdaşlığı genişləndirmək niyyəti ilə, aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Bu Anlaşma Memorandumu iki ölkə arasında kənd təsərrüfatı sahəsində qarşılıqlı maraq kəsb edən müxtəlif sahələrdə iqtisadi, elmi və texniki əməkdaşlığın qarşılıqlı faydalı inkişafına yönəlmişdir.

Maddə 2

Tərəflər öz dövlətlərinin qanunvericiliyinə uyğun olaraq və öz səlahiyyətləri çərçivəsində aşağıdakı sahələrdə qarşılıqlı iqtisadi, elmi və texniki əməkdaşlıq əlaqələrini qurmaq və inkişaf etdirmək niyyətindədirlər:

1. Tərəflər arasında kənd təsərrüfatı və aqrar-qida sənayesi sahələrində ticarət və investisiyanın qarşılıqlı təşviqi;
2. heyvandarlıqda yüksək məhsuldar heyvan cinsləri, südçülük və heyvandarlıqda iribuynuzlu mal-qara üçün saxlanma və qidalanma təlimləri, həmçinin süni mayalanma sahələrində təcrübə mübadiləsi;
3. bitki sortları, toxum və tingçilik sahəsində əməkdaşlıq;
4. pivə istehsalı, arpa sortlarının qarşılıqlı mübadiləsi və yeni texnoloji təcrübələr;
5. istehsal, sertifikatlaşdırma və üzvi əkinçilik istehsalı üzrə marketinq sahələrində məlumat mübadiləsi;
6. Azərbaycan Respublikasının və Çex Respublikasının kənd təsərrüfatı üzrə elmi tədqiqat və təhsil qurumları arasında birbaşa əlaqələrin yaranmasını dəstəkləmək məqsədi ilə iki ölkənin kənd təsərrüfatı elmi tədqiqat institutları və aqrar universitetləri arasında əməkdaşlıq;
7. Azərbaycan Respublikasında və Çex Respublikasında təşkil olunan seminarlarda, konfranslarda, iqtisadi missiyalar, kənd təsərrüfatı yarmarkalarında və sərgilərində aqro-emal sənayesini təmsil edən iqtisadi agent və ekspertlərin iştirakının dəstəklənməsi.

Maddə 3

1. Bu əməkdaşlıq məlumat, mütəxəssis və ekspert mübadiləsi, birgə təlim, seminar və konfransların təşkil edilməsi, hər iki ölkədə ticarət yarmarkaları və sərgilərdə iştirakın dəstəklənməsi və Tərəflər arasında danışıqlardan asılı olaraq digər yollarla həyata keçirilməlidir.
2. Bu Anlaşma Memorandumunun həyata keçirilməsi ilə bağlı bütün xərcləri Tərəflər özləri ödəyirlər.

Maddə 4

Tərəflər bu Anlaşma Memorandumundan irəli gələn məsələlər üzrə məsləhətləşmələr aparmağa hazırdırlar. Belə məsləhətləşmələr Çex Respublikası Hökuməti və Azərbaycan Respublikası Hökuməti arasında iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Komissiyanın sessiyaları çərçivəsində həyata keçirilir.

Maddə 5

1. Bu Anlaşma Memorandumu, onun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin sonuncu yazılı bildirişinin diplomatik kanallar vasitəsilə alındığı tarixdən qüvvəyə minir.

2. Tərəflərdən hər biri diplomatik kanallar vasitəsilə digər Tərəfə yazılı bildiriş göndərməklə bu Anlaşma Memorandumunu ləğv edə bilər.

3. Bu Anlaşma Memorandumu Tərəflər arasında hər hansı bir hüquqi öhdəlik yaratmır.

4. Bu Anlaşma Memorandumu Bakı şəhərində 2015-ci il 15 sentyabr tarixində, hər biri Azərbaycan, Çex və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsirində fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilindəki mətnə üstünlük veriləcəkdir.

**Azərbaycan Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi adından**
*(imza)*

**Çex Respublikasının**
**Kənd Təsərrüfatı Nazirliyi adından**
*(imza)*